**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

_______________

02.04.2024-cü il

**Dünya Bankı Qrupunun “Business Ready” hesabatının “İşçi qüvvəsi” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi**

| Sıra №-si | Görüləcək tədbirlər | Son icra müddəti | İcraçı qurumlar | Məsul şəxslər |
|---|---|---|---|---|
| **Əmək münasibətləri və məşğulluq sahəsində qanunvericilik islahatlarının aparılması** | | | | |
| 1. | Müddətli əmək müqavilələrindən sui-istifadənin qarşısının alınması məqsədilə qanunvericilikdə boşluqlar müəyyən edilməklə onların aradan qaldırılması istiqamətində təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | 01.06.2024 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Fuad Heydərov |
| 2. | Məzuniyyət hüququndan istifadə sahəsində qanunvericiliyin beynəlxalq normalara uyğunlaşdırılması ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | | | |
| 3. | Aylıq minimum əmək haqqının saatlıq minimum əmək haqqı ilə əvəz edilməsi ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | 01.07.2024 | | Nərmin Mirzəyeva |
| 4. | Əmək münasibətlərində ayrı-seçkiliyin və seksual-qısnamanın yolverilməzliyinin təmin edilməsi məqsədilə əmək qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | 01.09.2024 | | Fuad Heydərov |
| **Əhalinin məşğulluğunun genişləndirilməsi və işçilərin hüquqlarının qorunması istiqamətində institusional inkişafın təmin edilməsi** | | | | |
| 5. | Ayrı-ayrı peşə istiqamətlərinə olan tələbin müəyyən olunması və əmək bazarında daha çox tələb olunan peşələrin təşviqi istiqamətində işlərin görülməsi | 01.06.2024 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi,<br>Elm və Təhsil Nazirliyi | Rəşad Dayıyev,<br>Ceyhun Kərəmov |
| 6. | Özünüməşğulluq proqramının səmərəliliyinin artırılması istiqamətində tədbirlərin görülməsi, mövcud zərflərin keyfiyyətinin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması və Komissiyaya təqdim edilməsi | | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Cəmaləddin Quliyev |

| | | | | |
|---|---|---|---|---|
| 7. | İşəgötürənlərlə birgə təşkil edilən aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi, beynəlxalq təcrübələr əsasında yeni mexanizmlərin hazırlanması və tətbiqi | 01.06.2024 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Cəmaləddin Quliyev |
| 8. | Özünüməşğulluq proqramında qeyri-kənd təsərrüfatının payının artırılması istiqamətində tədbirlərin görülməsi | | | Cəmaləddin Quliyev, Rəşad Dayıyev |
| 9. | İşsiz və işaxtaran şəxslərə yönəlik sosial təminat mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | | | Cəmaləddin Quliyev |
| 10. | İşsiz və işaxtaran şəxslərə yönəlik məşğulluq tədbirlərinin səmərəliliyinin artırılması, o cümlədən bu sahədə mütərəqqi beynəlxalq təcrübələr nəzərə alınmaqla yeni mexanizmlərin tətbiqini nəzərdə tutan qanunvericilik layihələrinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.07.2024 | | Rəşad Dayıyev, Cəmaləddin Quliyev |
| 11. | Peşə hazırlığı kurslarına cəlb olunan şəxslərin və peşə hazırlığı istiqamətlərinin əhatə dairəsinin genişləndirilməsi | | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Elm və Təhsil Nazirliyi | Cəmaləddin Quliyev, Rəşad Dayıyev |
| 12. | Beynəlxalq təcrübələr əsasında peşə hazırlığında yeni mexanizmlərin və mütərəqqi yanaşmaların (o cümlədən vauçer mexanizminin) tətbiqini nəzərdə tutan qanunvericilik layihələrinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.08.2024 | | Cəmaləddin Quliyev, Ceyhun Kərəmov |
| **“Business Ready” hesabatı üzrə məlumatlılığın artırılması istiqamətində maarifləndirici görüşlərin keçirilməsi** | | | | |
| 13. | Əmək qanunvericiliyi sahəsində aparılan islahatların icrası istiqamətində sosial tərəfdaşlarla əməkdaşlığın genişləndirilməsi | İl ərzində | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Nərmin Mirzəyeva |
| 14. | Ölkədə fəaliyyət göstərən xarici biznes subyektlərinin yerli nümayəndələri ilə “Business Ready” hesabatı barədə məlumatlılığın artırılması istiqamətində görüşlərin keçirilməsi | 01.05.2024 | | Rəşad Zalov |
| 15. | Əmək qanunvericiliyi sahəsində aparılan islahatlar üzrə məlumatlılığın artırılması istiqamətində iri biznes assosiasiyaları ilə görüşlərin keçirilməsi | | | Fuad Heydərov |
| 16. | Ölkədə vergi, audit və hüquq sahəsində fəaliyyət göstərən əsas konsaltinq şirkətləri ilə “Business Ready” hesabatının “İşçi qüvvəsi” indikatoru ilə bağlı məlumat xarakterli görüşün keçirilməsi | | | Rəşad Zalov |
| 17. | Ölkədə məşğulluq xidmətlərinin əhatəliliyinin və keyfiyyətinin yüksəldilməsi istiqamətində iri biznes subyektləri ilə görüşlərin təşkili | 01.06.2024 | | Cəmaləddin Quliyev |
| 18. | “Business Ready” hesabatının indikatorlarının və tələb olunan qanunvericilik və inzibatçılıq islahatlarının müzakirəsi məqsədilə ölkədə fəaliyyət göstərən aparıcı biznes subyektləri ilə görüşlərin keçirilməsi, nəticələri üzrə təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | | | |
| 19. | “Business Ready” hesabatının “İşçi qüvvəsi” indikatoru ilə bağlı müvafiq sorğu sualları üzrə qanunvericiliyə dair məlumatlandırıcı arayışların hazırlanması və müxtəlif platformalarda yayımlanmasının təmin edilməsi | İl ərzində | | Cəmaləddin Quliyev, Nərmin Mirzəyeva, Nicat Rəhmanlı |
| 20. | Əmək qanunvericiliyi və əməyin mühafizəsinin norma və qaydaları barədə məlumatlandırma tədbirlərinin keçirilməsi | | | Nərmin Mirzəyeva |